*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 may 2017-ci il № 40 (2157) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq

## 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib

*Mayın 26-da "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.*



- Doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu respublikanı yaradıb. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi.

Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək üçün bu yaxınlarda mənim tərəfimdən sərəncam imzalanmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra müstəqilliyimiz əlimizdən alınmışdır. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Ondan sonra 70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Ancaq tarix sanki təkrarlanırdı və iki ildən sonra yenə də müstəqilliyimiz üçün böyük təhlükələr yaranmışdı. Əslində, müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan öz müstəqil siyasətini tam miqyasda apara bilmirdi. Bundan əlavə, ölkəmizdə yaşanan siyasi, iqtisadi, hərbi böhran, torpaqlarımızın işğal altına düşməsi, ovaxtkı hakimiyyət tərəfindən vətəndaş müharibəsinin başlanması, əlbəttə, gənc dövlətimizi uçurum kənarına qoymuşdu. 1993-cü ildə Azərbaycan yenə də böyük təhlükə ilə üzüzə qalmışdı. Azərbaycan xalqının müdrikliyi ölkəmizi, dövlətimizi bu bəladan xilas etdi.

Azərbaycan xalqı müdriklik göstərərək böyük lideri - Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü ildən sonra Azərbaycanda inkişaf dövrü başlamışdır və bu gün bu dövr davam edir. Bütün xoşagəlməz hallara, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ölkəyə böyük həcmdə xarici sərmayə gəlməyə başladı. Azərbaycan beynəlxalq təcriddən, informasiya blokadasından çıxa bildi. Bir sözlə, 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. Bugünkü Azərbaycan bir daha mənim sözlərimi təsdiqləyir ki, əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, indi Azərbaycan ən öndə gedən ölkələrdən biri ola bilərdi.

Bunu deməyə əsas verən bizim müstəqillik tariximizdir. Cəmi 23 il ərzində - 1993-cü ildən başlayaraq, görün, Azərbaycan nə qədər inkişaf edib, Azərbaycan nə qədər güclənib, görün, Azərbaycan dünyada hansı möhkəm mövqelərə sahib olub. İqtisadi sahədə, sosial sahədə, bütün başqa sahələrdə Azərbaycan böyük uğurlara imza atıb və bu gün bütün dünya bunu bilir və qəbul edir. Bu gün Azərbaycan bir çox ölkələr üçün nümunədir.

Bu gün qarşıda duran vəzifələr haqqında danışmaq istərdim. Biz gələcək illərdə də müsbət dinamikanı saxlamalıyıq və əminəm ki, saxlayacağıq. Daxili siyasətə gəldikdə, ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik təmin edilməlidir. Deyə bilərəm ki, Azərbaycanda daxili risk mənbələri mövcud deyil. Mümkün olan risklər xaricdə formalaşır. Belə olan halda biz ölkəmizi bundan sonra da xarici risklərdən qorumalıyıq, həm fiziki nöqteyi-nəzərdən, eyni zamanda, düzgün siyasət aparmaqla. Biz sərhəd mühafizəsini kifayət qədər gücləndirmişik və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Eyni zamanda, Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkətlərə, avantüralara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkətlərə cəlb etməyə çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq.

Biz ilk növbədə öz maraqlarımız, öz təhlükəsizliyimiz, inkişafımız, rifahımız haqqında düşünürük. Əgər hansısa beynəlxalq təklif və təşəbbüs bizim maraqlarımızla üst-üstə düşürsə, əlbəttə ki, biz buna müsbət yanaşa bilərik. Ancaq ilk növbədə, milli maraqlar, Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır, xüsusilə indiki şəraitdə. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bəzən buna görə də müxtəlif yerlərdən Azərbaycana təzyiqlər göstərilir və bizə qarşı kampaniyalar aparılır. Ancaq indiki şərait, bugünkü beynəlxalq vəziyyət bir daha göstərir ki, bu, yeganə düzgün siyasətdir. Çünki bu gün bölgədə, dünyada risklər, təhlükələr artır, təhlükə mənbələri genişlənir, əfsuslar olsun ki, bizim coğrafiyamızda sabitlik təmin edilmir, əksinə, ildən-ilə vəziyyət daha da gərginləşir. Ona görə təhlükəsizlik məsələləri ön planda olmalıdır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

*Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib. AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*





1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Doxsan doqquz il əvvəl mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən - "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Cümhuriyyətin yarandığı bu şərəfli tarixi 28 May Respublika Günü kimi qeyd edir.

Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini qeyd edəcək. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcək.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq

**(Əvvəli 1-ci səhifədə)**

Ölkə başçısı milli dəyərlərimizə sadiq qalacağımızı, keçən il Azərbaycanda "Multikulturalizm ili", bu il "İslam Həmrəyliyi ili" elan edildiyindən, ən yaxşı təbliğat vasitəsinin real həyat olduğundan və s. danışaraq deyib:

- Bu gün bizim beynəlxalq təşkilatlarla da çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq. Mən onların içərisində, ilk növbədə, İslam Əməkdaşlıq Təşkilatını qeyd etmək istərdim. Azərbaycan bu təşkilatın fəal üzvüdür. Bu təşkilat erməni təcavüzü ilə bağlı keçən il Kontakt Qrupu yaratmışdır. Erməni təcavüzü, ötən ilin aprel ayında onların törətdikləri təxribat hadisələri İslam Əməkdaşıq Təşkilatı tərəfindən pislənildi. Azərbaycan dövlətinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinə daim dəstək göstərilir.

Prezident İlham Əliyev daha sonra deyib:

- Xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpağımızda yaradılıbdır. Biz yaxşı bilirik ki,



1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Ona görə torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır.

Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səslənən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk Qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmır. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olmalıdır. Əgər Ermənistana bu işğalçı siyasətinə görə sanksiyalar tətbiq edilməsə, bu, ikili standartların növbəti əlaməti olacaqdır. Buna baxmayaraq, belə bəyanatların özü də hesab edirəm ki, müsbət addımdır.

Eyni zamanda, Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum"a çox sərt reaksiya verildi, həm qonşu ölkələr tərəfindən, həm Minsk Qrupundan, həm Avropa İttifaqından və digər ölkələrdən. Heç kim bu qondarma yığıncağı, bu biabırçılığı qəbul etmədi, əksinə, bunu pislədi. Bir daha sübut etdilər və göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, ölkəmizin ayrılmaz hissəsidir. Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik.

Məcburi köçkünlərlə bağlı bizim siyasətimiz göz qabağındadır. Son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. Hazırda yeni qəsəbələr salınır. Eyni zamanda, biz Bakı, Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlər üçün də yeni binaların tikintisinə başlayırıq. Bu da çox geniş bir proqram olacaqdır. Bir neçə min ailə, məcburi köçkün yaxın gələcəkdə yeni, gözəl evlərə, mənzillərə köçürüləcək.

Ordu quruculuğu istiqamətində siyasətimiz özünü tam doğruldub. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Beynəlxalq reytinqlər də bunu göstərir. Ordumuzun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, orduda vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bu gün biz ən qabaqcıl texnologiyalara malik olan texnika alırıq, silahlar alırıq və alacağıq. Ordumuz üçün nə qədər vəsait ayırmaq lazımdırsa, biz o qədər də ayıracağıq. Dilənçi Ermənistandan fərqli olaraq, biz ordumuzu öz hesabımıza təmin edirik, müstəqil ölkə kimi yaşayırıq. Onlar isə başqa yolu seçiblər, bu, müstəmləkə yoludur, bu, onların seçimidir.

Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Keçən ilin aprel döyüşləri bunu göstərdi. Aprel döyüşləri xalqımızın, ordumuzun gücünü göstərdi. Bir daha göstərdi ki, Azərbaycan Ermənistanın silahlı təxribatlarına heç vaxt dözməyəcək və göstərdi ki, Azərbaycanın indiki vəziyyətlə heç vaxt barışmayacaq.

Ölkə başçısı nitqinin sonunda deyib:

- Əlbəttə ki, qarşıda duran vəzifələr qeyd etdiyim vəzifələrdən daha da çoxşaxəlidir və çoxdur. Sadəcə olaraq, mən əsas istiqamətlər üzrə gələcək fəaliyyətimizi xalqa təqdim etdim. Əminəm ki, biz bütün istiqamətlər üzrə bundan sonra da sürətlə inkişaf edəcəyik. Bizim uğurlarımızın təməlində, əlbəttə, düşünülmüş siyasət dayanır və o amil dayanır ki, bu gün Azərbaycan xalqı müstəqillik şəraitində yaşayır. Müstəqilliyin dəyərləri, o cümlədən real həyatda özünü göstərir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın Müdafiə naziri MDB Müdafiə nazirləri Şurasının iclasında iştirak edib

*Mayın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə nazirləri Şurasının Moskva şəhərində keçirilən növbəti iclasında iştirak edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasdan əvvəl MDB iştirakçı dövlətlərin Müdafiə nazirləri Naməlum Əsgər abidəsi önünə əklil qoyub, "Həyat ağacı" heykəltəraşlıq kompozisiyasının açılış mərasimində və Müdafiə Nazirliyi Beynəlxalq mərkəzində şam ağaclarının əkilməsində iştirak ediblər.

Sonra Müdafiə nazirlərinin görüşü keçirilib. Görüşdə cari hərbi əməkdaşlıq məsələləri və gələcək perspektivlər müzakirə olunub.

# NATO PA-nın yaz sessiyasında dövlətlərin ərazi bütövlüyü məsələsi də diqqət mərkəzində olacaq

NATO Parlament Assambleyasının Tbilisidə keçiriləcək yaz sessiyasında bir sıra mühüm məsələlər, o cümlədən dövlətlərin ərazi bütövlüyü məsələsi diqqət mərkəzində olacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər NATO PA-nın Tbilisidə keçiriləcək yaz sessiyası ilə əlaqədar təşkil olunmuş mətbuat konfransında bildirilib.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze deyib ki, Avratlantik strukturlara inteqrasiya ölkəsinin xarici siyasətinin prioritetlərindəndir. NATO PA-nın yaz sessiyasının Tbilisidə keçirilməsi bu proseslərin daha da sürətlənməsinə səbəb olacaq.

NATO PA-nın prezidenti Paolo Ali sessiyada müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib, qəbul olunacaq sənədin və tövsiyələrin bütün ölkələr üçün vacib olduğunu bildirib. O deyib ki, dünyada baş verən proseslər, mövcud münaqişələr hamını ciddi narahat edir. Biz dünyada, eləcə də Qafqazda sülhün bərqərar olmasını istəyirik.

Sonra Paolo Ali Gürcüstanın NATO-ya üzvlüyü, regiondakı təhdidlər, kibercinayətkarlığa qarşı mübarizə ilə bağlı sualları cavablandırıb.

Qeyd edək ki, mayın 26-dan 29-dək Tbilisidə NATO PA-nın yaz sessiyası keçiriləcək.

Sessiyada Azərbaycan nümayəndə heyəti də iştirak edəcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 may 2017-ci il.***
Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, 60 və 82 millimetrlik minaatanlardan da (25 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq və Qazax rayonunun Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Koxanəbi, Muncuqlu, Əlibəyli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 25-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqə şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller nəzarət ediblər.

*Örnək*

# Ürək Vətən üçün döyünəndə...



*Uzaqdan atəş səsləri gəlir... Düşmənin təxribat-diversiya qrupları hərbi mövqelərimizi də, kəndlərimizi də müxtəlif növ silahlarla aramsız atəşə tutub...*

Döyüşlər gedir...

Bir anın içində məmləkətə yayıldı bu xəbər. Ürəkləri Vətən üçün, torpaq üçün döyünənlər bir yerdə qərar tuta bilmir. Aidiyyəti qurumlara müraciətlərin sayı-hesabı yoxdur. Əli silah tutan da, tutmayan da cəbhədə olmağa, əsgərlərimizlə çiyin-çiyinə vuruşmağa can atır.

O gün Fərman da ürəyi Vətən üçün döyünənlərin sırasındaydı. Onu döyüş meydanına Vətən sevgisi, ana torpağa bağlılıq çəkirdi. Gözlərini yoldan ayırmasa da, düşüncələri onu çox uzaqlara aparmışdı. Uşaqlığı, məktəb illəri, tələbəliyi, əsgəri xidməti də qələbə xəbərinin sorağıyla keçmişdi. Heç vaxt düşüncələrindən ata bilməmişdi şəhid olan sinif yoldaşının gözlərindəki kövrəkliyi və qüruru. Torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmağa tələsirdi...

Fərman Əsədli 1990-cı il sentyabrın 10-da Gəncə şəhərində anadan olmuşdu. Samux rayon Sərkar kənd orta məktəbini bitirmiş, Gəncə Dövlət Universitetinin "İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisasına yiyələnmişdi.

Qəhrəmanlığın əsası vətənpərvərliklə qoyulur. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik hissi yaradır, özünə inam hissini gücləndirir.

Mənəviyyatla vətənpərvərlik bilavasitə bağlıdır. İnsanın mənəvi aləmi ilk növbədə ailədə formalaşır. Fərman hərbçi ailəsində boya-başa çatmışdı...



2011-2012-ci illərdə hərbi xidmətdə olmuşdu. Vətən qarşısında müqəddəs borcunu başa vurub evlərinə dönərkən, komandirlərinə, əsgər dostlarına "Torpaqlarımızın düşməndən azad edilməsində mən də iştirak edəcəm" demişdi. İndi yola qətiyyətlə çıxmışdı. Mənzil başına çatmağa tələsirdi...

Qohumu Sadiq Əliyevlə birlikdə Tərtər rayonunun Şıxarx qəsəbəsinə çatdıqda dəhşətli bir səhnənin şahidi oldular. Qəsəbə ağır artilleriya atəşi altındaydı... "N" hərbi hissəsinin qərargahında onlara ordunun köməyə ehtiyacı olmadığını bildirərək, atəş altında olan ərazini tərk etmələrini xahiş etdilər...

Düşmən artilleriyasının mülki əhalinin yaşadığı ərazilərə ardıcıl zərbələr endirdiyindən yaralılara kömək niyyətiylə qəsəbəyə yollandılar. Düşmən tərəfindən müxtəlif istiqamətlərdə atılan top mərmiləri onlara yaxın düşəndə, qorxmadılar. Top mərmilərindən birinin düşdüyü ərazidən yaralıları çıxarıb xəstəxanaya çatdırdılar...

Bu anlarda qəhrəman əsgər və zabitlərimiz düşmənin təxribatının qarşısını qətiyyətlə alır, təmas xəttində öz üstünlüklərini daha da möhkəmləndirirdilər...

Hava qaralmaqda idi. Onlar düşmən artilleriyasının dağıtdığı evlərə son dəfə göz gəzdirib geri qayıtmaq haqqında danışırdılar ki, qarşı tərəfdən atılan top mərmisi lap yaxınlığa düşdü...

Vətən sevgisi... Təravətini və gücünü itirməyən tək məfhum... İnsan bu sevgiyə köklənəndə dünyanın bütün işığı, nuru onun qəlbinə hopur. Bəlkə də həmin anlarda iki yaşlı Xatirənin mışıltısı həzin nəğməyə çevrilmişdi. Məsum çöhrəsində həmişəki təbəssüm vardı. Kim bilir, bəlkə də yuxusunda həyatında yerini heç bir zaman heç kəsin tuta bilməyəcəyi atasını görürdü. Heç vaxt qayıda bilməyəcək atası sürətlə uzaqlaşaraq ona ömrü boyu şərəflə daşıyacağı şəhid qızı adını miras qoyurdu...

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fərman Əsədlinin (ölümündən sonra) təltif olunduğu "Şücaətə görə" medalını atası Elçin Əsədova təqdim etdi...

Ehtiyatda olan polkovnik-leytenant Elçin Əsədov "Bir ata olaraq oğlum kimi oğullarla fəxr edirəm. Onun Vətən sevgisiylə qəlbim daim mənəvi rahatlıq tapacaq", - deyir.

Xatirə ana "Şəhidlər üçün son yoxdur, sonsuzluq var. Məzar daşına şəhid adı yazdırmaq şərəfdir!" - deyir.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

*Şərqin ilk istiqlaliyyət günəşi olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək ərəfəsindəyik. Prezident İlham Əliyev mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinin respublikada geniş qeyd edilməsi və bu istiqamətdə tədbirlər planının həyata keçirilməsi ilə bağlı sərəncam imzaladı.*

Tarix

# Şərqin ilk istiqlaliyyət günəşi



Müasir müstəqil Azərbaycanın inkişafında müstəsna xidmətləri olan ümummilli liderimiz Heydər Əliyev çıxışlarında Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq parlaq tarixini şərh edərkən qeyd edirdi ki, müsəlman Şərqində ilk demokratik Cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə, yəni XIX əsrin sonu və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə bağlıdır. O illərdə vətənpərvər şəxsiyyətlər, mütəfəkkirlər, ziyalılar xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirərək, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsinə nail oldular.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 99 il keçir. Bu illər ərzində dövlətçilik tariximiz Cümhuriyyətin ənənələrinə uyğun formada inkişaf etməkdədir.

28 may bizim üçün nə deməkdir? Əgər nəzərə alsaq ki, bugünkü müstəqil Azərbaycan 1918-ci ilin Xalq Cümhuriyyətinin hüquqi varisidir, onda aydın olur ki, bu gün fəxr etdiyimiz azad Azərbaycan öz tarixi başlanğıcını 1918-ci ildəki demokratik Azərbaycandan götürüb.

Müstəqil dövlətimizin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı 1918-ci il mayın 28-də Tiflis şəhərində elan edildi. Bu dövlət 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud oldu. Lakin bu qısa müddətdə çox işlər görüldü, mühüm dövlətçilik atributları yaradıldı. Bu dövlətin yaradıcıları olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, Ə.Topçubaşov, H.Ağayev və başqa vətənpərvər istiqlalçılar milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər. Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal Bəyannaməsi" yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. "Bəyannamə"də elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı.

1918-ci il iyunun 16-da Milli Şura və Azərbaycan Hökuməti Gəncəyə, sentyabrın 17-də Bakıya köçürülür, noyabrın 19-da Azərbaycan parlamentinin təsis olunması barədə qərar qəbul olunur, dekabrın 7-də Azərbaycan parlamenti fəaliyyətə başlayır. 99 il əvvəl parlamentarizm ən vacib dövlət strukturu kimi Şərq dünyasında ilk dəfə məhz Azərbaycanda təsis olundu. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yeni idarəetmə prinsiplərinə keçən ilk dövlət oldu.

İdarə üsuluna görə Azərbaycan Xalq Cümhuriyyəti parlament respublikası idi. Qeyd etmək lazımdır ki, parlament respublikası, xalqın demokratik haqq və hüquqlarını yüksək səviyyədə təmin edən ən mütərəqqi idarəetmə sistemi yalnız dünyada ən inkişaf etmiş ölkələrdə tətbiq olunur.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlara haqq və ədalət, müstəqillik təminatına görə dövrünün bir çox ölkələrini geridə qoyurdu. İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq demokratik parlamentli müstəqil Azərbaycan dövlətinin yaradılmasını xəbər verirdi.

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası, sonra isə parlamenti və hökuməti mövcud olduğu qısa müddətdə iqtisadi, ictimai-siyasi və sosial həyatın müxtəlif sahələrinə aid məqsədyönlü islahatlar həyata keçirir, müstəqil Azərbaycan dövlətinin formalaşıb möhkəmlənməsi üçün misilsiz işlər görür.

Azərbaycan xalqının çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində, I Dünya müharibəsi dövründə Azərbaycanda 28 may 1918-ci il tarixində yaranmış müstəqil Azərbaycan Xalq Cümhuriyyətində milli ordunun qurulması, bir tərəfdən dövlət quruculuğunun mühüm tərkib hissəsi, digər tərəfdən də konkret tarixi şəraitdə ərazi bütövlüyünün qorunması üçün atılan zəruri addım oldu. Yeni yaradılacaq ordunun əsasını Müsəlman Korpusu təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk hökumət kabinəsinin tərkibində Hərbi Nazirlik yaradıldı və Xosrov Paşa bəy Sultanov hərbi nazir təsdiq edildi. Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilərək Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik hökumətin qərarı ilə Qafqaz İslam Ordusu komandanı Nuru paşaya həvalə olundu. Nəhayət, 1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman Korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. General-leytenant Əlağa Şıxlinski korpusun komandiri kimi öz vəzifəsini yenə də davam etdirdi.

Ordu quruculuğu sahəsində hökumət bir sıra önəmli tədbirlər həyata keçirdi. 1918-ci il iyunun əvvəllərində Gəncə Hərbi məktəbi fəaliyyətə başladı. 1919-cu ilin sonunda isə Hərbiyyə məktəbi, ardınca milli hərbi kadrlar hazırlayan istehkamçılar, hərbi dəmiryolçular və hərbi feldşer məktəbləri də açıldı.

1918-ci il noyabrın 1-də Hərbi Nazirliyin yenidən bərpa olunması qərara alındı. İlk vaxtlar Hərbi Nazirliyə rəhbərliyi Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz üzərinə götürdü. Nazir müavini tam artilleriya generalı Səməd bəy Mehmandarov təyin edildi.

Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərarı ilə general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Kifayət qədər hərbi biliyə və təcrübəyə malik zabitlər olan Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin, Həbib bəy Səlimovun, Murad Gəray bəy Tlexasın, İbrahim ağa Usubovun, Həmid bəy Qaytabaşının, İbrahim ağa Vəkilovun, Süleyman bəy Əfəndiyevin, Cavad bəy Şıxlinskinin, Feyzulla Mirzə Qacarın və başqalarının milli ordunun qurulmasında əvəzsiz xidmətləri olub.

19 mart 1919-cu ildə general-leytenant Məmməd bəy Sulkeviçin Baş Qərargah rəisi təyin edilməsi ilə Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılması sürətləndirildi, döyüş hazırlığı xeyli təkmilləşdirildi.

20 fevral 1920-ci ildə general-mayor Həbib bəy Səlimov yeni yaradılan Azərbaycan Ordusunun Vahid Qərargahının rəisi təyin edildi.

1920-ci il bolşevik işğalı ərəfəsində Azərbaycan Ordusunun əsas döyüş hissələri və birləşmələri 8 alaydan ibarət iki piyada diviziyası, 3 alaydan ibarət süvari diviziyası və iki topçu briqadasından ibarət idi. Bundan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada və bir pulemyot bölüyündən təşkil edilmişdi. Süvari kəşfiyyat, rabitə-telefon və qeyri-nizami bölükləri də var idi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən rus, ingilis, erməni-daşnak silahlı qüvvələrinin hücumuna məruz qaldı. Müdaxiləçilərin hər biri ayrı-ayrılıqda öz mənafeyi uğrunda müharibə aparırdı. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də XI Qızıl Ordu tərəfindən işğal olundu.

Bolşevik çevrilişindən sonra Azərbaycan Ordusunun mövcudluğuna da son qoyuldu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərə ehtiram

*C.Naxçıvanski adına Hərbi Liseyin kursantları tez-tez muzeylərə, silah sərgilərinə, tarixi yerlərə gedirlər. Bu günlərdə onlar Şəhidlər xiyabanındakı Bakı türk əsgəri şəhidliyi abidəsini ziyarət etdilər. Abidənin önündə torpaqlarımızın azadlığı uğrunda canlarından keçənlərin ruhunu bir dəqiqəlik sükutla yad etdilər.*

Ziyarət zamanı kursantların bir neçəsi ilə görüşüb söhbət etdim. Onlar qısa da olsa, türk əsgərlərinin igidlik və qəhrəmanlıqlarından söz açdılar. İlk həmsöhbətim kursant Mehdi Əzimov bildirdi ki, biz tariximizi yaxşı öyrənməliyik. "Aqillər yerində deyiblər ki, çox oxuyan çox bilməz, çox gəzən çox bilər. Bu gün biz Bakı türk şəhidliyi abidəsini ziyarət etməyə gəlmişik. Bu anlarda əsrin əvvəllərində baş verən hadisələr gözlərimiz qarşısında canlanır. Bildiyiniz kimi, 1918-ci ildə ermənilər Dronun, Nijdenin və başqa daşnakların başçılığı altında ölkəmizin müxtəlif bölgələrində azərbaycanlılara qarşı soyqırımı törədiblər. Qan su yerinə axıb, günahsız insanlar amansızcasına qətlə yetirilib. O vaxtlar Quba, Şamaxı, Bakı və başqa bölgələrdə gərgin vəziyyət yaranıb. Belə gərgin bir zamanda türk əsgərləri köməyə yetişərək xalqımızı erməni vandallarından xilas etdilər. Bu gün ziyarət etdiyimiz abidə o insanların xatirəsinə hörmət əlaməti kimi ucaldılıb".



- Əgər əsrin əvvəllərində türk əsgərləri xalqımızın köməyinə gəlməsəydilər, ermənilərin törətdiyi faciənin miqyası daha da genişlənərdi, - kursant Hacağa Əsgərli söhbətimizə qoşuldu. - Türk əsgərlərinin gücü qarşısında dayana bilməyən ermənilər geri çəkilməyə məcbur oldular. Minlərlə insan daşnakların əlindən xilas edildi. Qədirbilən xalqımız xilaskarlarını heç vaxt unutmur, türk əsgərlərinin xatirəsini ehtiramla yad edir, adını uca tutur.

Kursantlardan Nicat Orucov, Elman Əhmədli, Heybulla Tuhumov və başqaları da türk əsgərlərinin qəhrəmanlıqlarından ətraflı danışdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Tarix unudulmur, tarixi unutmuruq

## Silahlı Qüvvələrimizdə Respublika Gününə həsr edilmiş tədbirlər keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində təşkil edilən mərasimlərdə öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*

Təlim və Tədris Mərkəzində keçirilən tədbirdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin əməkdaşı Mədinə Məmmədova Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, tarixi rolu, fəaliyyəti və gördüyü quruculuq işləri haqqında qısa məlumat verdi. Bildirdi ki, bu gün hamımız üçün əlamətdar bir gündür. "Cəmi 23 ay yaşamış Cümhuriyyət xalqımız üçün çox böyük tarixi işlər görmüşdür. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yaradılmış ilk demokratik respublika idi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə bolşeviklər tərəfindən ilhaq edildi. Aparılan böyük quruculuq işləri yarımçıq qaldı. 20-ci əsrin sonunda Sovet hökuməti çökdükdən sonra xalqımız öz müstəqilliyini ikinci dəfə qazandı. Ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra müstəqilliyimiz möhkəmləndi. Ulu Öndər dövlətçiliyimizin daha da möhkəmlənməsi üçün uğurlu islahatlar həyata keçirdi. Aparılan islahatların nəticəsidir ki, bu gün müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyada daha da böyük şöhrət qazanmaqdadır."

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistləri əlamətdar gün münasibəti ilə tədbir iştirakçıları qarşısında maraqlı konsert proqramı ilə çıxış etdilər. Müğənnilərdən gizir Elçin Məmmədov, Qoşqar Qasımov, Vüsal Ağayev, Səbinə Qasımova, Ağabala Abdullayev və başqaları qəlbləri riqqətə gətirən rəngarəng mahnılar oxudular. Rəqs qrupunun çıxışı da böyük maraqla qarşılandı.

* * *

"N" hərbi hissəsində keçirilən tədbirdə polkovnik Bilal Çompuzov qeyd etdi:

- Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət olmaqla, Azərbaycanın tarixində əbədiyyən qalacaqdır. "1920-ci ilin aprelində rus imperiyası onun müstəqilliyinə son qoysa da, xalqın azadlıq istəyi, müstəqillik amalı yaşadı, xalq mübarizə apardı. 1991-ci ildə müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə gənc Azərbaycan dövləti daha dinamik inkişaf yoluna qədəm qoydu. Bu gün Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri sırasındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha nurlu sabahları təmin edilir."

Tədbirdə H.Aslanov adına Mərkəzi Zabitlər Evinin kollektivi maraqlı konsert proqramı ilə çıxış etdi.

* * *

C.Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbirdə Hərbi liseyin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək dedi:

- 28 May tarixi hər birimiz üçün əzizdir. 99 il əvvəl həmin gün Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini bütün dünyaya bəyan etdi. Xalqımız neçə illərdən bəri arzusunda, istəyində olduğu müstəqilliyinə qovuşdu. Azərbaycan Xalq Cümhuriyyəti dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda meydana çıxdı. Yeni qurulan Cümhuriyyət öz üzərinə götürdüyü çətin tarixi vəzifələri şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti yarandı. Ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, gerbi, himni yaradıldı, dövlət quruculuğu sahəsində ciddi addımlar atıldı. Ölkənin ərazi bütövlüyü və təhlükəsizliyi təmin edildi. Qısa müddət ərzində yüksək döyüş qabiliyyətli ordu yaradıldı, maarifin, mədəniyyətin inkişafına böyük diqqət yetirildi. 20-ci əsrin sonunda xalqımız ikinci dəfə müstəqillik qazandı. Azərbaycan Xalq Cümhuriyyətinin simvolları bərpa edildi. Xalqımız yenidən müstəqilliyinə qovuşdu.



"Qarabağ" ansamblının bədii rəhbəri əməkdar artist Firuz Səxavət C.Naxçıvanski adına Hərbi Liseyin qonağı idi. Mərasimin rəsmi hissəsi başa çatdıqdan sonra solistlər Rövşən Əziz, Kamilə Nəbiyeva, Səbinə Ərəbli, Gülnarə Bakılı və başqaları bir-birindən gözəl mahnılar oxudular. Qiraət ustası Qəhrəman Hüseynov vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən şeirlər söylədi.

"Qarabağ" ansamblının üzvləri C.Naxçıvanski adına Hərbi Lisey rəisinin adından fəxri fərmanla mükafatlandırıldılar.

Tədbirin sonunda bayram konsertinin təşkilatçısı Hərbi liseyin fizika müəllimi Mətanət İmamquliyeva şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə çıxış etdiyinə görə "Qarabağ" ansamblının rəhbəri Firuz Səxavətə və başqa müğənnilərə minnətdarlığını bildirdi.



* * *

Azərbaycan Hərb Tarixi Muzeyində keçirilən tədbirdə muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə bildirdi ki, 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisədir. "Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, 1918-ci il mayın 28-də öz müstəqil dövlətinə sahib oldu. Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsi aldığı çox mürəkkəb beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətinin əsas hissəsini ilk növbədə müstəqilliyin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq təşkil edirdi.

Müstəqillik dövründə xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyətin hökuməti və parlamenti elmin, təhsilin, xalq maarifinin, eləcə də milli ordunun inkişafını diqqət mərkəzində saxlayırdı.

Həmin illərdə Azərbaycan dilinin dövlət dili elan olunması, mavi, qırmızı və yaşıl zolaqlı, üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan bayrağın dövlət bayrağı kimi qəbul edilməsi, eləcə də Dövlət himninin qəbulu, milli valyutanın dövriyyəyə buraxılması Cümhuriyyət hökumətinin uğurlu islahatları kimi böyük əhəmiyyət kəsb edir."

Tədbirdə "Birinci Respublika" adlı sənədli film nümayiş olundu.

Muzeyin elmi işçisi Zəfər Kərimov, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti Əfqan Əliyev çıxış edərək Respublika Günü ilə bağlı fikirlərini bölüşdü.

Tədbirdə hərbi müəssisələrin, veteran təşkilatlarının və digər qurumların nümayəndələri də iştirak edirdilər.

Tədbir H.Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkil etdiyi musiqi proqramı ilə sona çatdı.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Ordu və cəmiyyət*

# "Salam, Qələbə!" deyəcəyimiz günə az qalıb

*Rubrikamızın qonağı Azərbaycan Yazıçılar Birliyinin vətənpərvərlik komissiyasının sədri, həkim, şair, bəstəkar Şahin Musaoğludur.*



**- Sizə necə müraciət edim? - həkim Şahin Musaoğlu, şair Şahin Musaoğlu, bəstəkar Şahin Musaoğlu?**

- Hər biri ayrılıqda, üçü vəhdətdə vətəndaşlıq qayəmi müəyyənləşdirib. Həkim olaraq insanların sağlamlığının keşiyində dayanmaq, şair olaraq şeirsevərlərin poetik ruhuna, bəstəkar olaraq melodik duyumuna xidmət etmək. Belə yaşamışam, belə yaşayacam. Hər üçü mənə könül xoşluğu verir.

**- İlk səngər mahnılarının müəllifi kimi tanınırsınız. Bu istək necə yarandı?**

- 1991-1992-ci illərdə həm Qarabağda, həm də Ermənistanla sərhəd rayonlarda döyüşlər gedirdi. Əslində, elan edilməyən müharibəydi. Vətənsevərlər, torpaqsevərlər qələbə naminə səfərbər olmuşdu. Torpağı yerli müdafiə batalyonları qoruyurdu. Bu isə nizami ordu deyildi.

Həmfikirlərimlə biz də bu müharibədə iştirak etmək, necə deyərlər,... "bir işin qulpundan yapışmaq" istədik. O illərdə döyüşlərdə yaralananlar yaxın ərazilərə göndərilirdi. Etiraf edək ki, əsgərlərin ilk tibbi yardım göstərmə qabiliyyəti yox dərəcəsindəydi - yaralıların neçəsini qanaxmadan itirmişdik.

Müharibənin tələbi kimi operativ qərargah yaradılmasını zəruri bildik, Müdafiə Nazirliyinin Hərbi Tibb İdarəsinə müraciət etdik. Vətəndaşlıq borcumuzu yerinə yetirmək istədik. Qərargah yaradıldı. Yaralılar, onların pasport məlumatları əsasında harda nə vaxt yaralandığı, (yaralanmanın xüsusiyyətləri, yeni, güllə yarasıdırmı, qəlpə yarasıdırmı və s.) kartotekasını təşkil edirdik. Müharibəylə, əsgər həyatıyla ilkin tanışlıq yaşam fəlsəfəmin tərkib hissəsi oldu.

**- Əsgərlərlə ünsiyyətiniz də bu vaxtlardan başlayıb...**

- Bəli, əsgərlərimizlə ünsiyyət düşüncələrimə hopdu, onun yönümünü müəyyənləşdirdi. Onların əksəriyyətilə döyüş öncəsi də görüşürdük, döyüşdən sonra da.

**- Döyüş öncəsi söhbətlərinizin mahiyyətini təxmin edirəm. Döyüşlərdən sonra yaralı əsgərlə nələrdən danışırdınız?**

- Başlıca olaraq Vətəndən, torpaqdan, qələbədən. Ən çox eşitdiyim kəlmələr məni də, həkimləri də, tibb bacılarını da duyğulandırırdı. Yaralılar tez sağalmaq, yenidən döyüşlərə qayıtmaq istəyirdi. Bu istəyin mahiyyəti Vətən sevgisiydi. Onların bəziləri Şıxov batalyonu kimi tanınırdı. Birinci batalyonu döyüşə yola salanda tanımışdım. Onda onlara yazdığım şeiri oxumuşdum, bir qardaş, bir vətəndaş olaraq demişdim: igid əsgər, möhkəm dayan!..

Bu, mənim ilk şeirim idi. Bu tövsiyəşeir bəyənilmişdi. Neçə əsgər şeiri oradaca köçürüb özüylə döyüşə aparmışdı. Açığı, qürurlanmışdım ki, şeirim döyüşənlərin sırasındadı. Aradan aylar keçəndən sonra Yusif Mirzəyevlə tanış olduq. Xəstəxanamızda müalicə olunurdu. Çox duyğusal insanıydı. Şeirə musiqi yozumu verdiyimi biləndə necə sevindi, "İlk səngər mahnısı olacaq!" - dedi.

Şeir mahnıya çevrildi.

**- Yaxşı xatırlayıram, Yusif sevinclə deyərdi ki, Şahin mənə mahnı həsr edib. Az sonra "Təkcə mənə yox, əli silah tutanların hamısına" - deyərdi, gülümsünərdi.**

- Təəssüf ki, Yusif onu eşidə bilmədi. Ağdərə ətrafında gedən döyüşlərdə şəhid oldu. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr etdik "İgid əsgər, möhkəm dayan!" mahnısını. Zabit idi Yusif, "Vətən üçün hamımız əsgərik!" - deyirdi. Əslində, mahnıdakı müraciət Azərbaycan əsgərinin obrazına ünvanlanıb.

**- Beləcə, Şahin Musaoğlu yazdığı vətənpərvərlik şeirlərinə mahnı da bəstələdi.**

- Şeiri düşüncələrimin işığı bilmişəm. Düşüncələrimin işığına söz yozumu, sözə, yəni, şeirə musiqi yozumu vermək istəmişəm. "İgid əsgər, möhkəm dayan!" şeiri başlanğıc oldu.

**- ...və sonralar digər səngər mahnıları yarandı.**

- "Cənab leytenant", "And içirik", "Birinci batalyon", "Çağırır Vətən", "Torpaq",... İyirmi iki mahnı müəllifiyəm. Bunlardan əksəriyyətinin sözlərini də özüm yazmışam. Şadam ki, mahnılarım sevilir.

**- Hər mahnının öz məzmunu var. Hamısını bir amal birləşdirir: Vətən.**

- Bəli. "Şahinlər" hərbi pilotlarımıza, "Əsgər, Vətən əmanəti" səngərlərdə dayanan, torpaqlarımızı qoruyan əsgərlərimizə, "Çağırır Vətən" yeniyetmələrə, çağırışçılara, "Cənab leytenant" zabitlərə, ... həsr olunub. Hamısının qayəsi vətənsevərlikdi. İstər şeir olaraq, istərsə də mahnı olaraq.

**- Neçə il əvvəl Yusif Mirzəyevin anım günündə birinci sinif şagirdinin "İgid əsgər, möhkəm dayan!" mahnısını ifa etməsini, yəqin ki, unutmayıbsınız.**

- Elə məqamlar unudulmur.

**- Onda müəllimlər də, şagirdlər də, ictimaiyyətin nümayəndələri də qədərsiz ehtiramla Şahin Musaoğluna baxmışdı...**

- Belə mahnılar Vətən sevgisinin dərinləşməsində, vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Yeniyetmələrin, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasına az-çox xeyrim dəyirsə, belə taledən, əlbəttə, razıyam.

**- Siz həm də Azərbaycan Yazıçılar Birliyi vətənpərvərlik komissiyasının sədrisiniz.**

- Bir ildən bir az çoxdu bu komissiyaya rəhbərlik edirəm. Yazıçılar Birliyində geniş tərkibdə (Birliyin rəhbərliyi, KİV nümayəndələri, tanınmış şairlər, yazıçılar, ...) "Dəyirmi masa" təşkil etdik. Əhatəli fikir mübadiləsi oldu. Deyilənlər ümumiləşdirildi. Sözün, ədəbiyyatın gücündən də bəhrələnilməsi, şairlərin, yazıçıların, ədəbiyyatşünasların müharibədə iştirakının təmin olunması üçün Müdafiə Nazirliyinə müraciət etdik. Müdafiə naziri general-polkovnik Zakir Həsənov müraciətimizə böyük sayğı göstərdi, Yazıçılar Birliyinin rəhbərliyini qəbul etdi. Olduqca işgüzar, səmimi görüş oldu. İkitərəfli memorandum imzalandı. Əvvəllər də döyüş bölgəsinə getmək istəyən şairlərə, yazıçılara şərait yaradılırdı. Bu, həm sistemsiz idi, həm də konkret ideya olmadığından səmərəsi o qədər də ciddi nəzərə çarpmırdı. İndi koordinasiya yaradılırdı; bir tədbir digərinin davamı olacaqdı.

Digər tərəfdən belə bir təşəbbüs ordu ilə cəmiyyət arasında yaranan etibarlı ünsiyyətdir. Alınan, ictimailəşdirilən informasiyaların inandırıcılıq amili var və bu amil indi dolğunluğuyla təmin edilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ədəbiyyata bu diqqətini, təbii ki, cəmiyyət olduqca ehtiramla qarşıladı.

**- Fəaliyyətiniz nələri əhatələyir və yaxud əhatələyəcək.**

- Hamımız Vətənin pərvanəsi olmalıyıq. Vətənpərvərlik hamımızın yaşam düsturumuzdur. Günümüzün tələbidir bu. Bu günümüzdən son nəfəsəcən belə olacaq.

Hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması, istər məzmun, istərsə də forma baxımından təkmilləşdirilməsi başlıca məqsədimizdir. Belə demək mümkünsə, savaş-döyüş dövrünün ədəbiyyatının təşəkkül tapmasında vəsilə olmaq istəyirik. Yaradılmasına mənəvi dəstək, yaradılanların təbliğatçısı olmaq. Bununla da hərbi vətənpərvərlik tərbiyəsinin təbliğinin ədəbi müstəvidə rolunu yüksəltmək, ordu quruculuğuna ədəbiyyat vasitəsilə xidmət etmək. Yaranan ədəbiyyat əsgərin dünyaduyumuna kömək edirsə, onun vətənpərvərlik duyğularının formalaşmasında gərəkli olursa, bu, elə ordu quruculuğuna xidmət deməkdir.

Yeri gəlmişkən, ordumuzun bugünkü səviyyəsi hamı kimi yazıçıları, şairləri də sevindirir. İndi ordumuz əvvəlki ordu deyil. İstər nizami ordu olma baxımından, istər döyüş hazırlığı, istərsə də təchizat baxımından. İndi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri aprel ovqatıyla döyüşəcək. Ali Baş Komandanın "Bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq" - fikrini reallaşdıracaq. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Ən güclü silah yaxşı təlim keçmiş əsgərdir" fikrini xatırlayıram. Belə əsgərləri olan ordumuz, təbii ki, buna qadirdir.

**- Maraqlıdır, yazdığınız səngər mahnılarını səngərdə eşidibsinizmi?**

- Əsgərlərlə söhbətləşmişdik. Məlum oldu ki, əsgərlərdən biri yaxşı gitara ifaçısıdı. Xahiş etdik. "İgid əsgər, mökəm dayan"ı da ifa etdi, "Əsgər, Vətən əmanəti"ni də. Davamı olaraq "Qarabağ şikəstəsi"ni. Hər üçü ruhumuzun çağırışına döndü. Hər baxışda Böyük Qələbənin işartılarını görürdük. Bir həqiqəti əsgərlərlə bir sırada, bir səngərdə yaşadıq: bu ruh qalib gələcək!

**- Mahnılarla bir sırada hərbi marşlar da yazıbsınız.**

- Hər şeirin öz musiqi janrı var. Musiqi janrı özünə xas olan şeir tələb edir.

Marş çağırışdı.

Türklərin mehtər marşları var. Marşlara savaş musuqisi də deyə bilərik. Marşlar döyüşən ordunun şəxsi heyətinin ruhunun formalaşmasına və əsgərin psixologiyasına emosional, duyğusal təsir göstərməklə öz möhtəşəmliyini, ecazkar gücünü saxlamaqdadı. Müharibələr zamanı hücumlarda, həmlələrdə, bəzən əks-hücumlarda duyğuları marşlar dilləndirib, əsgəri marşlar şövqə gətirib, onun ruhunun ruhuna dönüb. Marşlar bəlkə bu xislətinə, xarakterinə görə mənim də diqqətimi çəkib, mənim də düşüncələrimin, bu anlamda yaradıcılığımın yönümünü müəyyən qədər dəyişib. Söz-musiqi vəhdətinin möcüzəsinə, qüdrətinə mən də müraciət etməyi qərara aldım. Sözün mayasını, qayəsini şeirə, şeirin mayasını, qayəsini musiqiyə marş biçimində çevirdim.

**- Marşı şeir olaraq yazırsınız, yoxsa yazılmış şeirin ideyasına görə janr seçirsiniz?**

- Şeirin ideyası hansı janrda daha möhtəşəm səslənərsə, həmin janrı seçirəm. Necə alınır, onu dinləyənlər yaxşı dəyərləndirər.

**- "İstiqlal marşı" şeiri marş olacaqdı. Bəs digərləri?**

- "And içirik!", "Birinci batalyon", "Səfərbərlik" və digərləri məzmun baxımından marş janrını tələb edirdi. Bu şeirlərin əsgərlərin döyüş ruhunu ifadə etməsini istədim.

Yaradıcılıq amalım belə olub: yeniyetmələrin, gənclərin, bu sıradan əsgərlərin hərbi vətənpərvərlik duyğularının formalaşmasında yardımçı olmaq. Nə yazmışamsa, belə yazmışam, nə yazacamsa, belə yazacam. Nəşrə hazırladığım "Hərbi marşlar" kitabımın əksər oxucusu əsgərlərimiz olacaq. Onları şeir kimi oxuyacaqlar, şeirlə bir sırada notları da veriləcək. Zənnimcə, hərbi hissələrin orkestrləri bundan bəhrələnə biləcək...

**- Aprel döyüşlərində qazanılan qələbə sizin də ruhunuzun can ortağıdı, şübhəsiz.**

- Əlbəttə. Bu döyüşlərin qələbə ovqatı vətəndaş olaraq mənim də ömrümün ziyasına döndü. Şair olaraq bu döyüşlərdən, bu döyüşün qəhrəmanlarından silsilə şeirlər yazmışam. Yaxın vaxtlarda onların bəziləri mahnı olacaq. Çox istərdim ki, onların ilk dinləyiciləri əsgərlərimiz olsun. Həm də düşmənlə təmas xəttində xidmət edən əsgərlər, səngərdəki əsgərlər.

**- İstərdim ki, Böyük Qələbəyə həsr edəcəyiniz şeiri, o şeirə yazacağınız mahnını "Salam, Qələbə!" - adlandırasınız.**

- Mütləq.

**Söhbətləşdi:
Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

# Ordu həmkarlarına qayğı əsas meyardır

## Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransından qeydlər

*Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ordumuzun hərbi hissə və müəssisələrində işləyən çoxsaylı fəhlə və qulluqçuların hüquq və mənafelərinin müdafiəsini həyata keçirir. Mayın 24-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində təşkilatın XVIII hesabat-seçki konfransı keçirildi.*



Tədbirdə BHİK-in ötən beş il ərzində fəaliyyəti diqqət mərkəzində oldu. Konfransa həmkarların üzvlərilə yanaşı, Müdafiə Nazirliyinin, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Respublika Komitəsinin nümayəndələri və digər qonaqlar qatılmışdılar.

Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin, həmçinin dünyasını dəyişmiş BHİK-in üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

DİİXİ Hİ Respublika Komitəsi Rəyasət Heyətinin üzvü, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova ötən beş il müddətində həyata keçirilmiş işlər barədə hesabat məruzəsi ilə çıxış etdi. Hər şeydən öncə həmin illər ərzində ölkəmizdə və Silahlı Qüvvələrimizdə baş vermiş əlamətdar hadisələrə toxunan təşkilat rəhbəri Azərbaycan xalqının milli-mənəvi sərvəti olan dövlət müstəqilliyinin 25 illiyinin ölkəmizdə təntənəli surətdə qeyd edildiyini, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə Silahlı Qüvvələrimizin daha da qüdrətləndiyini, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun komandanlığı ilə ötən ilin aprelində cəbhədə qazanılmış uğurları vurğuladı. O, həmçinin qeyd etdi ki, həmkarların cəmiyyətdəki rolunu yüksək qiymətləndirməsi, onların fəaliyyətini təkmilləşdirən fərman və sərəncamlar imzalaması dövlətimizin başçısının bu sahəyə ardıcıl diqqət və qayğısının əyani təzahürüdür. Ölkə qanunvericiliyinə, o cümlədən Əmək Məcəlləsinə edilmiş mütərəqqi dəyişikliklər işçilərin hüquqlarının daha səmərəli qorunması üçün həmkarlar təşkilatlarına, o cümlədən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə yeni imkanlar yaradır.

Hesabat dövründə ordu həmkarları üçün əlamətdar hadisələrdən biri də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 50 illik yubileyini təntənəli surətdə qeyd olunması idi.

Abiyat xanım komitənin beşillik fəaliyyətini geniş təhlil edərək bildirdi ki, onun əsas vəzifəsi ittifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və qanuni hüquqlarını müdafiə etmək, kollektiv müqavilələrin vaxtında bağlanması və onun müddəalarının yerinə yetirilməsinə ciddi nəzarət etmək, əmək haqqının vaxtında ödənilməsinə nail olmaq, əməyin mühafizəsi, üzvləri təhlükəsiz iş yeri ilə təmin etmək, sağlamlıqlarının qayğısına qalmaq, onları maarifləndirmək və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir. Hesabat dövründə təşkilat öz fəaliyyətini məhz bu istiqamətlərdə qurub.



Məruzə ilə əlaqədar çıxış və diskussiyalarda hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr geniş müzakirə edildi. İlk həmkarlar təşkilatlarının sədrləri Daşdəmir Əliyev, İsa Qasımov, Kazım Cəfərov, Gülnarə Kələntərova, İsmayıl Əhmədov və başqaları çıxış etdilər.

Konfrans nümayəndələri təşkilat sədrinin hesabat məruzəsini və onun ətrafında çıxışları, səsləndirilən təklifləri nəzərə alaraq Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin ötən beş il ərzində fəaliyyətini qənaətbəxş hesab etdi, qurumun yeni Rəyasət Heyətini təsdiq etdi. Abiyat Ağadadaşova yekdilliklə yenidən BHİK-in sədri seçildi.

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin I müavini Aida Əliyeva Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri kimi Abiyat Ağadadaşovanın öz vəzifəsini layiqincə yerinə yetirdiyini, BHİK-in ən yaxşı həmkarlar təşkilatlarından biri olduğunu qeyd etdi və ordu həmkarlarına müvəffəqiyyətlər dilədi.

Konfransda Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Həbib Məmmədov da çıxış edərək BHİK-in hesabat dövründə fəaliyyətini, həmkarların ordu hissələrilə sıx təmas şəraitində fəaliyyət göstərməsini yüksək qiymətləndirdi və qarşıdan gələn növbəti beş ildə ordu həmkarlarına uğurlar arzuladı.

Konfrans, həmçinin, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin avqustda keçiriləcək VI qurultayına Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələrini seçdi.

Eyni zamanda yeni seçilmiş Rəyasət Heyətinə tapşırıldı ki, həmkarların sosial-iqtisadi hüquq və maraqlarının təmin edilməsilə bağlı konfransın müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsinə ciddi nəzarət etsin, o cümlədən il ərzində hərbi hissə və müəssisələrdə çalışan bütün mülki işçilərin tibbi müayinəsi təşkil edilsin.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Məktəblilər hərbi dənizçilərin qonağı olub



Bakı şəhəri Nəsimi rayonu 164 nömrəli tam orta məktəbin şagirdləri Hərbi Dəniz Qüvvələri bazasını ziyarət ediblər.

Hərbi hissə və təlim gəmisinə baş çəkən məktəblilər matroslarla görüşüb, onların məşqlərini izləyib və sosial-məişət şəraitləri ilə tanış olublar. Şagirdlər şəxsi heyət qarşısında vətənpərvərlik şeirləri və mahnılarından ibarət konsert proqramı ilə çıxış ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Ermənistanın beynəlxalq qurumlara böhtan atması sistemli xarakter alıb"

Bu fikir Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində keçirilən monitorinq zamanı guya Azərbaycan tərəfinin ATƏT-in missiyasını ön mövqelərə çıxarmaması barədə Ermənistan mətbuatında növbəti dəfə yayılan xəbərlərlə bağlı Müdafiə Nazirliyinin yaydığı açıqlamada qeyd olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 25-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinqin insidentsiz başa çatması beynəlxalq missiya tərəfindən rəsmi surətdə təsdiqlənib.

Ermənistan tərəfi də monitorinqin qrafikə uyğun keçirilməsi və atəşkəs rejiminin pozulmaması barədə xəbər yayıb. Lakin həmin xəbərdə Azərbaycan tərəfinin guya ATƏT-in missiyasını təmas xəttinə çıxarmadığı da bildirilib.

"Bildiririk ki, martın 1-də Ağdam rayonunun Çəmənli kəndi istiqamətində keçirilmiş monitorinqdən sonra da Ermənistan tərəfi bu cür təxribat xarakterli məlumat yayıb. Bir daha bildiririk ki, monitorinqin keçirilməsi mexanizminə uyğun olaraq, beynəlxalq müşahidəçilər əvvəl rabitə, sonra isə vizual əlaqə yaradaraq nə vaxt, hansı nöqtədə olmalarını, eləcə də digər detalları özləri müəyyən edir, monitorinqin baş tutması və sona çatmasını orada iştirak edən səhra köməkçiləri təsdiq edirlər. Əgər münaqişə tərəflərindən biri monitorinqin keçirilməsinə istənilən formada problem yaradarsa, bu barədə ilk məlumat verən həmin müşahidəçilər olacaq.

Ermənistan mütəmadi olaraq bu kimi böhtan xarakterli, yalan məlumatlar yaymaqla beynəlxalq qurumları sistemli şəkildə şantaj etmək, onların fəaliyyətinə kölgə salmaq və etimadına xələl gətirmək məqsədini güdür", - deyə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunub.

AZƏRBAYCAN ORDUSU

## Ovqat

# “Cıdır düzünün çiçəklərinin də təravətini özünə qaytaracağıq”

...Hərbi xidmət borc ödəmədi...

Əsgərlər döyüş növbətçiliyi aparır...

Əsgərlər təlimlərdə döyüş hazırlığını artırır...

"N" hərbi hissəsində xidmət edən Tural Əlizadə ilə Bulud Həsənli asudə vaxtlarında səmimiyyətlə nədən, nələrdən danışırlar? - söz sözü çəkir, uşaqlığın qayğısızlığından, yeniyetməliyin çılğınlığından, nağıl-dastan qəhrəmanlarından, qəhrəmanlıqlardan, bir də ötən ilin aprel döyüşlərindən - qələbədən. Mübarizləşən, Muradlaşan, Samidləşən, ..., Çingizləşən əsgərləri - o döyüşlərdə şəhid olanları da anırlar.

Turalla Bulud asudə vaxtlarında söhbətləşəndə, Azərbaycan Ordusunun gücündən, qüdrətindən, Ali Baş Komandanın, Müdafiə nazirinin ön xətdə gəlişlərindən, əsgərlərlə səngərlərdə söhbətlərindən, əsgərlərin vətənpərvərliyindən danışırlar. Ön xətdə yaradılan şəraitdən söhbət açırlar...

Vətəni qoruyurlar əsgərlər. Hər qarış torpağı, bu torpağın hər daşını, hər gülünü, tər gülünü, hər çiçəyini, tər çiçəyini, çiçəklərin şeh dolu ləçəyini qoruyurlar.

Yaz fəslidi. Vətəni yazın gözəlliyini duya-duya qoruyurlar. Yaranışdan oyaq dağlara mətərislənib qoruyurlar. Turalla Bulud hərdən gözdoyduran, könülaçan gözəlliklərə qarışır, bu gözəllikləri gözlərinə, gözlərindən könlünə köçürür. Çəmənlik, çəmənlikdə güllər-çiçəklər əsgər nəfəsiylə təravətlənib deyə belə cazibədardı. Turalla Bulud lalələri oxşayırlar, əzizləyirlər, onları dərməyə əlləri gəlmir. Bu anlarda Cıdır düzünü xatırlayırlar,



şübhəsiz. "Cıdır düzünün çiçəklərinin də təravətini özünə qaytaracağıq..." - Azərbaycan əsgəri belə qətiyyətlə xidmət edir. Bu qətiyyət qələbəyə köklənib; əsgərlərimiz Böyük Qələbənin əsgəri olmaq niyyətindədi. Bu niyyət müqəddəs niyyətdi...

Asudə vaxtlarda söz sözü çəkir...

Döyüş növbətçiliyindən, təlimlərdən sonra xalqımızın dünənindən danışırlar, torpaqlarımızın işğaldan azad edilməsindən, şəhidlikdən, şəhidlərdən danışırlar... *"Vətən istəyərsə, Vətənə görə Candan keçənlərin sırasındayam..."* - deyirlər.

Məmləkətin aprel ovqatının daha böyük miqyasda - Böyük Qələbənin gətirəcəyi ovqatda yaşanılacağı gündən, Azərbaycanımıza o günü yaşadacaq əsgərlərin sırasında olmaq istəyindən danışırlar...

Goranboy əməliyyatından sonra Ortakənddəydik. Qalib əsgərlərlə söhbətləşirdik. Yusif Mirzəyevin sevincində bir əlçim kədər də gördüm. Niyəsiylə maraqlandım. "Müharibə başa çatınca bir ürək tutumunca sevinə bilməyəcəyik..." - dedi. "Müharibə torpaqlarımız işğaldan azad ediləndə, Azərbaycan əsgəri əzəli sərhədlərimizdə dayananda başa çatacaq". Bu əsgərlər bu amaldan danışırlar. "Bizdən sonra hərbi xidmətə gələnlər sərhədlərimizdə xidmət edəcək!" - əsgərlərimiz bu niyyətin əsgəridi. Asudə vaxtlarda söhbətləşəndə bu amalın şaxələrindən, bu amalı müəyyənləşdirən məqamlardan danışırlar...

"Mən Azərbaycan əsgəriyəm!" - qüruruna tapınıb danışırlar. Turalla bulud da "Biz qalib gələcəyik. Cıdır düzünün çiçəklərinin də təravətini özünə qaytaracağıq!" - deyirlər..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto**
**C.CƏFƏROVUNDUR**

## Hərbi ənənələr, yeniliklər

# “Nurol Əjdər” zirehli transportyoru



"Nurol Əjdər" zirehli transportyoru Türkiyənin Nurol Makina şirkətinin məhsuludur. Onun ilk oxşarı 1995-ci ildə Ruminiyada istehsal edilib. Türkiyədə səhra şəraitində sınaqdan keçirilməsi üçün beş ədəd belə döyüş maşını 1999-cu ildə yığılıb. Sınaqların başa çatması zamanı ordu tərəfindən qarşıya qoyulan tapşırıqları tam yerinə yetirə bilmədiyinə görə, Nurol Makina şirkətinin rəhbərliyi daha müasir maşının hazırlanmasına qərar verib. Beləcə, yeni "Nurol Əjdər" zirehli transportyoru yaradılıb.

Şəxsi heyətin və desantın atıcı silahlardan, mina partlayışından qorunmasını ZTR təmin edir. Onun alt hissəsi döyüşçüləri mina və fuqas mərmilərindən daha yaxşı qoruyur. Zirehli transportyor yanğınsöndürmə cihazları, kütləvi qırğın silahından qorunmaq üçün mühafizə və havalandırma sistemi ilə təchiz edilib. Maşında altı silindrli dizel 402 at gücündə mühərrik quraşdırılıb.

Silahlanma qismində maşın 7,62 mm-lik pulemyot və 40 mm-lik qumbaraatanla təchiz edilib.

"Nurol Əjdər" zirehli transportyorunun çəkisi 18 tondur, iki nəfər heyət üzvündən ibarətdir və 8-10 nəfər desant üçün nəzərdə tutulub. Gövdəsinin



uzunluğu 7045 mm, eni 2686 mm, hündürlüyü 2400 mm-dir. Sürəti saatda 110 kilometr, şose yolda ehtiyat hərəkəti 800-1000 kilometrə qədərdir.

Təkər formulası 6x6-dır. Üzmə qabiliyyəti də yüksəkdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Suriyanın şərqinə endirilən hava zərbələri nəticəsində azı 35 dinc sakin ölüb



ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq koalisiya qüvvələri Suriyanın şərqində İŞİD terrorçularının nəzarətində olan şəhərə hava zərbələri endirib, dinc sakinlər arasında ölənlər var. Məyadin şəhərinin Deyr-ez-Zor hissəsinə endirilən hava zərbəsi nəticəsində azı 35 dinc sakin həlak olub.

### Türkiyədə antiterror əməliyyatı nəticəsində 29 PKK-çı öldürülüb



Türkiyənin şərqində yerləşən Ağrı vilayətində dünən keçirilən antiterror əməliyyatı nəticəsində azı 29 PKK silahlısı öldürülüb. Əməliyyatın gedişində, həmçinin, 3 hərbçi və 1 gözətçi həyatını itirib. Bölgədə əməliyyat hazırda da davam edir.

Bu barədə mayın 26-da vilayət administrasiyasından bildiriblər.

"PKK silahlıları Van-Çaldıran avtomobil yolunda 3 yük maşınını yandırdıqdan sonra jandarmeriyanın xüsusi təyinatlı bölmələri əməliyyata başlayıb. Döyüşlər nəticəsində 29 silahlı öldürülüb, 3 jandarmeriya əməkdaşı və 1 təhlükəsizlik qoruyucusu həyatını itirib", - məlumatda deyilir.

### Yeni Zelandiya 3D printeri ilə hazırlanan raketi kosmosa göndərib



Yeni Zelandiyanın şimal adasındakı Mahia bölgəsindən 3D printeri ilə hazırlanan raketi kosmosa göndərib.

"Electron" adlanan bu raket ABŞ və Yeni Zelandiyanın "Rocket Lab" müştərək şirkəti tərəfindən hazırlanıb.

"Təxminən 5 milyon dollara başa gələn "Electron" Yeni Zelandiyadan orbitə göndərilən ilk raket olub. 17 metr uzunluğundakı raket 4 il müddətində istehsal edilib.

### Mosulun qərbində 4 kənd İŞİD-dən azad edilib



Mosulun qərbində 4 kənd İŞİD terror qruplaşmasından azad edilib.

Terrorçulardan təmizlənən Kubbetul Vehbi, Rafik, Rafik əl-Əvvəl və Melihat kəndləri və onları bir-birinə bağlayan yol Mosulda strateji əhəmiyyətə malik yerlərdir.

İraqın təhlükəsizlik xidmətinin əməkdaşları həmin bölgədə 200-dən çox dinc vətəndaşı da xilas ediblər.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Gizir Əhmədov Elvin İmdad oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Məmmədova Nəsibə Tofiq qızına 2004-cü ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yusifov Elçin Eyvaz oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 230
Nüsxə 4650